CƏMİYYƏT

# “Sənan haqqında sağlığında olduğu kimi danışırıq”

## DOSTUNU XİLAS EDİB, ÖZÜ ŞƏHİD OLAN SƏNAN AXUNDOVUN HƏYAT HEKAYƏTİ

1992-ci ildə Sənanın atası Tahir Axundov da könüllülər batalyonuna yazılıb, o da həmyerliləri kimi gecə-gündüz ermənilərin işğalı səbəbindən doğma torpaqlarımızda yaranmış sərhəd məntəqələrində keşik çəkməyə gedirdi. Vətən darda idi. Hər gecə atılan top, mərmi səslərindən onsuz da Füzuli rayonunun kəndlərinin sakitliyi, firavanlığı pozulmuşdu. Ruslar, xarici qüvvələr ermənilərin köməyinə gəlirdi. Azərbaycanlıların Vətənin müdafiəsi üçün yaratdıqları batalyonların isə kənardan köməyi çox az idi. İnsanlar əlində olan yaba, balta, tüfənglə öz el-obasını qoruyurdular. Yenicə müstəqillik qazanmış bir xalqın Rusiya Ordusunun qanlı hücumlarına qarşı gücü haradan olacaqdı ki? Bütün əsrlərdə və siyasi oyunlarda hakimlərə, padşahlara, siyasətçilərə alət ola bilən erməniləri Azərbaycanın müstəqilliyini viran etmək üçün də məqsədli şəkildə Qarabağ oyununda istifadə etmişdilər. Ermənilər də belə oyunlara adətkərdə olduqlarından, oyunun bütün şərtlərinə gedirdilər. Təki oyun olsun. Erməni oyunda alət, biz isə müstəqilliyə və Vətəni qorumağa iddialı. Bəzən Tanrı da düşmənə aman verir. Amma Vətəni qoruyanlar, elindən-ocağından ayrılmaq istəməyənlər də elə bilirdilər ki, HAQQ səslərini eşidəcək.

13 yaşlı Sənan da güllə səsləri altında dərsə gedir, axşamlar evdə atasını gözləyirdi. Bəzən səhərə kimi yatmırdı. Onda Azərbaycanın yaxın-uzaq guşələrindən insanlar axın-axın vətəni düşməndən qorumaq üçün düşmənlə həmsərhəd rayonlara köməyə gəlirdilər. Vətəninin uzağı-yaxını, yadı-doğması olmur ki. Vəziyyət gündən günə gərginləşir, Füzulinin kəndləri də boşalırdı. Belə günlərin birində Sənanın atası hər iki övladını - qızını və oğlunu Bakıya bacısıgilə göndərdi. Sənan getmək istəmirdi. Rayondan ayrılana qədər boynu arxaya burulu qaldı. Cığırları, yolları, dalanları, bulaqları, biçənəkləri, dağları gözlərinə yığdı.

(ƏVVƏLİ ÖTƏN SAYIMIZDA)

- Nəcibə xanım, evinizdən ürəyimə bir işıq axdı. İstəyirəm ki, bu gün göz yaşı, qüssə-kədər olmadan danışaq. İstəyirəm bu işığı itirməyim.

- Aida xanım, necə doğru deyirsiniz. Siz inanırmısınız ki, biz Sənan haqqında hər gün sağlığında olduğu kimi danışırıq. Ata getdi, ata gəldi, ata göylərdən baxır, ata bilir ki... bizə də onu belə xatırlamaq xoşdur. Çünki Sənan çox pozitiv idi. Bu mənzilə iki il idi ki, köçmüşdük. Evin hər yerində onun təbəssümü, pozitivliyi qalır. Mən bəzən qayğılı, kədərli, hirsli ola bilərdim, ancaq biz bir dəfə də onu evdə kədərli, hirsli görmədik.

- Nəcibə xanım, Tahir dərsə hazırlaşacaq. Olarmı əvvəlcə onunla söhbət edim.

Anası Tahiri səslədi. Əsgər kimi gəlib anasının qarşısında dayandı. Dedim gəl yanımda otur, oğul. Bir az atandan danışaq.

- Atama deyirdim ki, mən hərbçi olacağam. Deyirdi “mən çox təpik döymüşəm. Sənin də əvəzinə xidmət etmişəm. Kim olursan ol, kişi ol!”.

Yadımdadır, bir dəfə məni Bakıdakı iş yerinə də apardı. Oradan qayıdanda çox qürurlu idim. Hərbçi yoldaşları onun qabağında dayanıb, hərbi salam verir, farağat dayanırdılar. Atamın otağında divar boyu xəritələr var idi. Mahiyyətinə varmırdım. Atam kabinetindən çıxanda, surqucla açar yerini bağladı, möhürlədi. Oradan qayıdanda çox sevinirdim. Dedim ki, ata sənin maraqlı işin var. Bəlkə səninlə işləyim. Yenə də dedi ki, yox, sənin yolun başqadır. O mənim həkim olmağımı istəyirdi. Hara gedirdisə, mənə müxtəlif dillərdə kitablar gətirirdi. Mən məktəbin rus dili bölməsində təhsil alıram. Alman, ingilis dillərində sərbəst danışıram. Onun gətirdiyi kitabların özü məndə hərbə maraq yaratmışdı. Bir də filosofları çox oxuyub müzakirə edirdik.





Yuxularıma tez-tez gəlir. Mənə çətin olanda, hər hansı bir sualın cavabını tapmayanada, həmin gecə peyda olur yuxularımda. Sağlığında olduğu kimi, oturub söhbət edirəm onunla. Başımı sığallayır, məsləhət verir. Elə bil ki, yanımdadır. Ötən yay Almaniyaya yay tətili məktəbinə gedirdim. Ailə dostlarımız var Köln şəhərində. Ata gecə yuxuma gəlib dedi ki, sən narahat olma, get Ziqi və Martina ilə görüşəcəksən. Onlar səni qarşılayacaq, kömək edəcək. El bil ki, yol xəritəmi cızmışdı. Onun dedikləri kimi oldu. Tək buradan uçdum Frankfurta, oradan da Haydelberqə, oradan da Kölnə, dostlarımız məni qarşılayıb evlərinə apardılar. Nə vaxt ki mənə çətindirə, qərarsızam, gəlir yol göstərir, sonra da yuxu kimi yox olur gözlərimdən... Bir sözünü heç vaxt unutmayacağam: “Dostunu yanında saxla, düşmənini lap yaxında saxla!”.

...Yenə Tahirin ala gözlərinə baxıram. Kədər var, ağırlıq var orda. Lap dərindədir. Tahir yaşından əvvəl böyüyb. Tahirin gözlərinə diqqətlə baxanda onu da bilirsən ki, o, həm də müdrik bir gəncdir. Atasızlıq onu tez böyüdüb. Axı indi Tahir Nəcibə xanımın həm dostu, həm yoldaşı, həm oğlu, həm də evinin böyüyüdür. Tahir də bu qədər məsuliyyəti hiss etdiyindən, Tanrının yükünə çiyin verib.

Tahirin səsindəki ahəng, dəqiq nitqi, danışıq qabiliyyəti, üzündəki gizli zabitəsi - bunların hamısı onu artıq hərbiləşdirib. O, özündən asılı olmayaraq oxuduğu kitabların, baxdığı hərb filmlərinin cazibəsinə düşüb. Tahir hərbçi ailəsində hərbçi olmaq üçün formalaşıb. Elə arzusu da hərbi həkim olmaqdır. Qarabağ savaşından, dünyanın siyasi mənzərəsindən, filosoflardan danışdıq. Sonra belə bir sual etdim:

- Sən filosoflar Ərəstundan, Əflatundan, Konfutsidən xəbərdarsan.

**- Konfutsidən bir neçə ibrətamiz fikir deyə bilərəm:**

**1.** “Hazırlıqsız insanları müharibəyə göndərmək gedənlərə xəyanətdir”

**2.** “Yayından atılan ox bizə doğrunu göstərir. Əgər atıcının oxu hədəfə dəymirsə, bilir ki, bu onun günahıdır, özgədə günah axtarmır”

**3.** “Tələbəsi Konfutsidən soruşur: “Ruhları necə yad etmək olar? Müəllim cavab verir: “Sən insanlara xidmət etməyi bilmirsən, ruhlara necə xidmət edəcəksən?”. Belə olduqda tələbəsi ondan ölümün nə olduğunu soruşur. Müəllim cavab verir: “Sən hələ həyatın nə olduğunu bilmirsən, haradan biləsən ki, ölüm nədir?”.

- Tahir, çox gözəl. Bu qədər imtahan yükünün içərisində fəlsəfəni unutmamağın çox təqdirəlayiqdir. Yəqin beynəlxalq təşkilatların Qarabağ savaşı ilə bağlı son bəyanatlarını sən də eşitmisən. Deyirlər ki, xalqı sülhə hazırlamaq lazımdır. Necə baxırsan bu məsələyə?

- Mən sülh olsa da, itkisiz sülhə razıyam... Onu deyə bilmərəm. Ancaq... mən erməni ilə qapıbir qonşu yaşaya bilmərəm. İnanıram ki, torpaqlarımızı qaytaracağıq. Hansı yolla hələ bilmirəm. Onlar mənim atamı öldürüblər. Qanı düşmən dost olmaz. Konfutsidən soruşdular: “Doğrudurmu ki, pisliyə qarşı yaxşılıq etmək lazımdır?”. Müəllim cavab verdi: “Bəs yaxşılığın əvəzini nə ilə verəcəksən? Pisliyin qarşılığını ədalətli şəkildə ödəməlisən, yaxşılığa isə yaxşılıqla cavab ver”. Mən belə düşünürəm.

Tahir öz otağına çəkiləndən sonra, bizi diqqətlə dinləyən 7-ci sinif şagirdi Nəzrin başladı atasından danışmağa: “Atama zəng gəldi. O burada, divanda oturmuşdu. Kiminləsə telefonla danışırdı. Birdən atamın qışqırtısını eşitdim. Sevinclə çığırdı. Qaçıb bizi qucaqladı. Çox möhkəm qışqırdı. Və kiməsə dedi ki, məni diqqətdə saxla. Oralar mənim torpağımdır. Sonra dərhal formasını geyinib getdi... Bir neçə gün atamı görmədim. Mən dərsə olanda da atamdan mesaj gəlirdisə, tez çıxırdım dəhlizə, atama cavab yazırdım.

…Nəzrin udqunur, istəyir ki, qəhərini boğsun. Boğur qəhərini, yenə də danışmağa başlayır: “Ad günündə bizimlə gəzməyə gedəcəkdi... Alınmadı... İşdən çağırdılar onu...

Yenə udqunur Nəzrin, yenə qəhərini boğur, gözlərindəki yaşı da gizlədir, hiss edirəm ki, anasından gizlədir. Kədərini, ağrısını anasına bildirmək istəmir.

- Atama axırıncı dəfə 18 apreldə saat 16:01-də yazdım ki, “ATA, SALAMAT QAL!”. Bilmirəm niyə yazdım, bilmirəm. Onda mən 4-cü sinifdə oxuyurdum.

Nəzrinin qırıq-qırıq xatirələrini danışmağa gücü bu qədər çatdı, bu qədər danışa bildi. Sonra o da getdi öz otağına. Yəqin ki, öz otağında oturub anasından gizlətdiyi göz yaşlarını axıdırdı.

*Aida Eyvazlı*

*(davamı var)*